## “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I); 2024, № 3, maddə 247; 2025, № 1, maddə 14, № 3, maddə 215, № 6, maddə 536, № 8, maddə 738) 79-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 79.1.1-ci maddədən “kənd təsərrüfatı,” sözləri çıxarılsın;

1.2. 79.1.2-ci maddəyə “quyuların” sözündən sonra “(kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilənlər istisna olmaqla)” sözləri əlavə edilsin;

1.3. 79.1.6-cı maddəyə “tikililərin” sözündən sonra “(kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilənlər istisna olmaqla)” sözləri əlavə edilsin;

1.4. 79.1.10-cu maddəyə “istixanaların” sözündən sonra “(kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilənlər istisna olmaqla)” sözləri əlavə edilsin.

**Maddə 2.** “Torpaqların münbitliyi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 128 (Cild I); 2024, № 3, maddə 250) 14-cü və 17-ci maddələrinin birinci hissələrindən, 20-ci maddəsinin ikinci hissəsindən “(uqodiyalarının)” sözü çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 dekabr 2025-ci il
№ 316-VIIQD